*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 288-294*

https://doi.org/10.62837/2026.2.288

**GÜNEL MÜBARİZ QIZI BAYRAMOVA**
AMEA Nəsimi adına Dilçilik İnstitutu, dissertant
bygunelbayramova@yahoo.com
orcid.org/0000-0002-5496-7327

# AZƏRBAYCAN HÜQUQ TERMİNOLOGİYASININ TARİXİ MƏRHƏLƏLƏR ÜZRƏ FORMALAŞMA XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər: hüquq, dövlət, hüquqi termin, hüquqi sistem, tarixi inkişaf, təşəkkül***
***Ключевые слова: закон, государство, юридический термин, правовая система, историческое развитие, формирование***
***Key words: law, state, legal term, legal system, historical development, formation***

Dövlət və hüququn yaranması bir-biri ilə birbaşa və qarşılıqlı təsir əlaqəsi təşkil edir və biri digəri olmadan sistemli şəkildə inkişaf edə bilməz. Dövlət yarandıqdan sonra hüquq da onunla birlikdə formalaşır və cəmiyyətdə sosial-ictimai münasibətləri tənzimləyən əsas vasitəyə çevrilir. Dövlətdə daha mürəkkəb institutların yaranması ilə hüquq da daha sistemli və ixtisaslaşmış olur. Həmçinin hüquq da ədalət və qaydaların təşkil edilməsi ilə dövləti legitimləşdirir, gücləndirir və stabilliyini təmin edir. Hüquq sisteminin inkişafı həm də öz növbəsində hüquq terminologiyasının formalaşması və təşəkkülündə əhəmiyyətli rol oynayır. Hüquq terminologiyası öz-özlüyündə yaranmır; hüquqi sistemin xarakterinə uyğun formalaşır. Hüquqi sistem nə qədər mürəkkəb olarsa, onun terminoloji bazası da o qədər ixtisaslaşmış olur. Azərbaycanda hüququn tarixi inkişafı fonunda hüquqi terminologiyanın formalaşması və təşəkkülünü aşağıdakı kimi mərhələli tədqiq etmək olar. Azərbaycanda hüquq sisteminin tədqiqi müasir hüquq elminə əsasən iki mərhələyə bölünür: islamaqədərki dövr və ondan sonrakı dövr. İslamaqədərki (VII əsr) dövrdə mövcud olan qədim Azərbaycan dövlətlərində qanunlar adət hüququna əsaslanmaqla, şifahi formada nəsildən-nəslə ötürülür, hüquqi münasibətlər tayfa və icma ənənələri ilə tənzimlənirdi. Azərbaycanın qədim quldarlıq dövlətlərində hüququn ən qədim və ilkin mənbəyi *adət* olmuşdur [4, 13]. Hüquqi terminlər də sistematik deyildi və gündəlik dilin tərkibində praktiki şəkildə istifadə olunurdu. Dövlətlər yarandıqdan sonra isə adətlərlə yanaşı şah fərmanları, sərəncamlar, müxtəlif normativ sənədlər hüququn yaranmasında əhəmiyyətli rol oynamışdır [2, 31]. Hüquqi münasibətlər daha çox torpaq və əmlak, ailə-nikah, mirasın bölünməsi, mübahisələrin həlli üzərində qurulmuş və ilkin hüquqi anlayışlar da bu istiqamətdə yaranmışdı. Azərbaycanda yaranmış ilk dövlət qurumu kimi Arattada dövlət idarəçiliyi sahəsində ***ensi-hökmdar, maşmaş-kahin/vəzir, sukkal-elçi/kiçik hökmdar rütbəsi, uqula-rəis, mirzə*** kimi anlayışlar mövcud idi. Arattadan sonra kutilər,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 288-294*

lullubilər, su tayfaları, turukkilər kimi tayfa ittifaqlarının mövcud olmasına dair məlumat olsa da, onların hüquqi vəziyyəti, vergi və mülkiyyət münasibətləri və s. haqqında məlumat yoxdur. Qədim Azərbaycan dövlətlərində yazılı hüquq abidələrinin olmaması səbəbilə, hüququn ilkin xarakteri haqqında ətraflı məlumat vermək mümkün deyil. Zərdüştlüyün qanunlar toplusu olan Avesta qanunları, eləcə də Assuriya yazıları bu problemi qismən həll etməyə kömək edir. Avesta qədim dövrün hüquqi ənənəsinin öyrənilməsində əvəzsiz rola malikdir. Belə ki, Avestanın Vendidad adlanan hissəsində dini ayinlər, mülki-hüquqi əqdlərin bağlanması və müqavilə şərtlərinin pozulması, ailə-nikah münasibətləri, vərəsəlik hüququ və ədalət mühakiməsinin həyata keçirilməsinə dair normalar müəyyən edilmişdir [4, 15]. Etik, tarixi və hüquqi normaların toplusu kimi Avesta ilkin hüquqi anlayışlar və hüquqi terminoloji bazanın formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Belə ki, əmlak və mülkiyyət münasibətləri ilə bağlı ***mülk, torpaq, pay, bölüşmə, mal, sahib, yurd, otlaq/örüş,*** öhdəlik və müqavilə/əqd münasibətləri ilə bağlı ***borc, əhd, and, söz, əmanət, kəfil, girov,*** ailə-nikah münasibətləri və vərəsəlik ilə bağlı ***nikah, qohumluq, miras, varis, başlıq, qəyyum,*** məsuliyyət və cəza ilə bağlı ***qisas, cərimə, cəza, qadağa, günah, haqq,*** idarəetmə və ictimai intizamla bağlı ***hakim, şura/məclis, vergi, əmr, qanun*** kimi formalaşmış sabit anlayışlar yazılı şəkildə sistemləşdirilməsə də, hüquqi terminologiyanın əsasını təşkil edirdi. Bu anlayışlar həm də qədim Azərbaycan dövlətlərində ictimai münasibətlərin tənzimlənməsinə hüquqi yanaşmanın mövcud olmasının əyani sübutudur. Bununla yanaşı, idarəçilik sahəsində ***hökmdar,*** onun hakimiyyətinin məhdudlaşdığı ***ağsaqqallar şurası,*** inzibati və məhkəmə hakimiyyətini həyata keçirən ***canişin,*** əyalət hakiminin işinə nəzarət edən ***katib*** kimi anlayışlar artıq hüquq leksikonuna daxil idi. Əhali hüquqi status baxımından üç təbəqəyə bölünmüşdü: **kahinlər** (yuxarı təbəqə), **əyanlar** (iri torpaq sahibləri), **azad icmaçılar** (dövlət torpağında yaşayıb vergi ödəyirdilər).

Avestada həmçinin torpaq üzərində mülkiyyət hüququnun formaları, alqı-satqı, bağışlama, girov müqavilələrinin bağlanması üzrə şərtlər, onların yerinə yetirilməməsinə görə cəza tədbirləri və məsuliyyət və s. müəyyən edilmişdi. Ədalət mühakiməsi ***maqlar*** (zərdüştlük kahinləri) vasitəsilə həyata keçirilirdi. Məhkəmə şaha məxsus idi və bu dövrdə arbitraj, yəni məhkəməyəqədərki münsif baxışının da elementləri mövcud idi. Qədim quldarlıq dövlətlərində adətlərə əsaslanan şifahi hüquq normaları tətbiq olunurdu. Hüquqi terminologiya əsasən din, dövlət idarəçiliyi, mülkiyyət, vergi və öhdəliklərlə bağlı anlayışlardan ibarət idi. 3-7-ci əsrlərdə feodal münasibətlərinin təşəkkül tapmağa başladığı dövr hüquq tarixində keçid mərhələsi hesab olunur. Bu dövrün hüquq mənbələri adət hüququ, dini hüquq normaları və kilsə qanunlarından, hüquqi terminologiya isə pəhləvi, qədim alban və dini terminlərdən ibarət olmuşdur. Sasanilərin hökmranlığı dövründə də əvvəlki dövrdə olduğu kimi müxtəlif hüquq mənbələri içərisində ən əhəmiyyətlisi Avesta idi. Bununla yanaşı "Tənsar məktubu", hüquq və məhkəmə icraatı, tapşırıq müqavilələri,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 288-294*

bağışlama, ailə-nikah, xüsusi hüquq və məhkəmə prinsiplərinə dair müddəaları əks etdirən "Matikan" (Sasani qanunnaməsi) dövrün hüquqi abidələri sırasında idi. Xüsusi feodal torpaq mülkiyyətinin ***dastakert (irsi mülkiyyət) və xostak (şəxsi mülkiyyət)*** kimi növləri var idi. Şəxsin əmlak üzərində münasibətini əks etdirən 2 hüquq mövcud idi: ***əşya hüququ (iura in re)*** və ***şəxsi öhdəçilik hüququ (iura in personam).*** Subyektin sahib olmadığı əşya üzərində hüquqi sahibliyi ***servitut, uzufrukt, girov, depozit*** kimi anlayışlarla ifadə edilirdi. ***Servitut hüququ*** dedikdə, başqasına məxsus torpaq sahəsi və ya daşınmaz əmlakdan məhdud çərçivədə istifadə, ***uzufrukt*** dedikdə isə əmlakdan tam istifadə və gəlir götürmə nəzərdə tutulur. "Matikan"ın tərkib hissələrindən biri ailə-nikah münasibətlərinin tənzimlənməsi ilə bağlıdır. Burada ər-arvadın ümumi mülkiyyəti, vəfat zamanı irsi qaydada ötürülmə, qəyyumluq, himayədarlıq, övladlığa götürmə kimi hüquqi məsələlər əhatə olunub. Nikahın – qızın atası və ya qəyyumunun evindən çıxaraq ər evinə daxil olmağı mənasını verən ***patikşayih,*** atası olmasa belə, atasının varisi olan qızla bağlanan nikah – ***epikler,*** 15 yaşına çatmış qızın öz istəyi ilə atasının razılığı olmadığı halda bağladığı nikah – ***beqaspen*** kimi növləri var idi. Ailə başçısının vəfat etməsi zamanı onun əmlakı və ailə üzvlərinin himayəsi üzrə qəyyum ***sərdar*** adlanırdı. Bu dövrdə vergilər həm pul, həm natura formasında idi. Belə vergilərin ***qezit-can vergisi, xəraq-kənd təsərrüfatı məhsullarından alınan vergi*** kimi növləri var idi.

Azərbaycanın Albaniya hissəsində ***keşiş*** və ***saray məhkəmələri,*** cənub hissəsində isə dini və dünyəvi məhkəmələr mövcud idi. Hakimlər işlərə baxarkən hüquqi kazuslar (presedentlər, sənəd nümunələri) və baş kahinlərin göstəriş məktublarına istinad edirdilər. Bununla yanaşı, işə baxılan zaman qərar qəbul etmək mümkün olmadıqda, ***ordaliya (and içdirilmə)*** üsulundan istifadə olunurdu. Məhkəmənin çıxardığı qərarla razılaşmadıqda, iş təkrar baxılması üçün ya böyük hakimə, ya da ali apellyasiya, yəni ali kahin məhkəməsinə göndərilirdi. Terminlər ad baxımından fərqli olsa da, anlayış və məna baxımından günümüzlə səsləşir. Fərq ondan ibarətdir ki, bu gün hüquqi terminlər dini anlayışlar üzərində qurulmayıb.

7-ci əsrdə xristianlıq sıxışdırılıb İslam dini hakim dinə çevrildikdən sonra şəriət qanunları tətbiq olunmağa başlandı. İslam dövrünün Azərbaycanın hüquq sisteminin tədqiq olunmasında başlanğıc nöqtə kimi götürülməsinin əsas səbəbləri həmin dövrdən etibarən qanunların şifahi formadan yazılı topluya salınması və vahid hüquq sisteminin yaradılması ilə əlaqəlidir. Şəriətlə yanaşı xristianların kilsə qanunlarına bənzəyən müsəlman hüququnun əsas mənbələri Quran və Sünnədir. ***Sünnə*** ərəb sözü olub "nümunə, adət-ənənə" deməkdir. İslam hüququnu öyrənən elm ***Fiqh*** adlanır. Fiqh ərəb sözü olub "anlama, başa düşülmə" deməkdir və müsəlmanların əməl etməli olduqları hüquqi və əməli qaydaları ehtiva edir və ibadət, mülki münasibətlər, cinayət və cəza, dövlət və idarəetmə məsələlərini tənzimləyir. Bu dövrdə məhkəmə-prosessual sahədə ***şəriət, fiqh, qazi-hakim, müfti-fətva verən alim, fətva-hüquqi rəy, iddia, şahid, hökm, dəlil, bəraət,*** mülki-ailə münasibətləri üzrə ***nikah, mehr-qadına***

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 288-294*

***verilən əmlak təminatı, talaq-boşanma, irs, vərəsə, mülk, vəqf-dini məqsədlər üçün əmlak, müqavilə-əqd,*** cinayət və cəza sahəsində ***hədd-cəza növü, diyə-qan pulu, qisas, təzir-hakim tərəfindən müəyyən edilən cəza,*** vergi-maliyyə sahəsində ***xərac-torpaq vergisi, cizyə-müsəlman olmayanlardan alınan vergi, rüsum-rəsmi ödəniş, bəytül-mal-dövlət xəzinəsi, zəkat-xeyriyyə məqsədilə yığım*** kimi terminlər hüquqi leksikona daxil olmuşdur. Mülki hüquqda fiziki şəxslər *azad müsəlmanlar, zimmilər (İslam dinini qəbul etməyənlər)* və *kölələr* olmaqla üç qrupa bölünürdü. Müsəlman hüququnun əsas hissəsini əmlakla bağlı münasibətlər təşkil edir. Fiqhdə mülki hüququn obyekti yalnız əmlakla bağlıdır. Torpaq üzərində sahibliyin 5 kateqoriyası var idi: ***xəlifə (diya əs-sultaniyyə/sultan mülk sahibliyi), iqta-xüsusi mülkiyyət, vəqf-dini məqsədlər üçün mülk, icma mülkiyyəti*** [4, 73].

Bu dövrdə ərəb-fars mənşəli sözlərlə yanaşı, türk mənşəli hüquqi terminlər də var idi. Bunlara misal olaraq, ***bəy, xan, ağa, kəndli, ordubəy-hərbi rəhbər, törə-nizam, qayda, barış, qan davası, and, toy, ob-kənd torpağı, sərmayə-feodal kənd təsərrüfatı mülkiyyəti, nəfəqə-aliment.*** *Qisas* və *diyə (qan pulu)* həm şəriət, həm türk adət hüququnda istifadə olunurdu. Növbəti mərhələ feodal idarəçiliyin gücləndiyi Xanlıqlar dövrüdür. Bu dövrün hüquq terminologiyası dövrün inzibati strukturu ilə yanaşı yerli ictimai və hüquqi münasibətləri də əks etdirirdi. Şifahi adət hüququ, feodal idarəçilik və şəriət qaydalarının vəhdəti terminoloji bazanı çoxqatlı sistemə çevirmişdir. Din və dünyəvi hüquq xanlıqlar dövründə də paralel mövcudluq vəziyyətində idi. ***Xan, bəy, ağa, divan, fərman*** kimi xanlıqların feodal iyerarxiyasını, ***mülk, tiyul, vəqf, xərac, ob*** kimi torpaq münasibətlərini, ***hədd, qisas, diyə, təzir, qan davası*** kimi cinayət və məsuliyyəti, ***nikah, mehr, vərəsə, irs, and*** kimi ailə və miras məsələlərini əks etdirən həm fars, həm türk mənşəli terminlərdən istifadə edilirdi.

Hüquqi vəziyyətinə görə əhali rəiyyət, rəncbər, elat və digər sosial qruplara bölünmüşdü. Bu dövrdə Şimal-qərbi Azərbaycanda Car-Balakən mahalının hüquqi adət normalarını ehtiva edən, kodifikasiya olunmamış Car-Tala Qanunnaməsi əsasən mülkiyyət hüququnun müdafiəsinə təminat verən normalar toplusundan ibarət idi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Rusiya imperiyası modelindən milli dövlətçilik prinsiplərinə keçid edildiyindən, hüquqi sistem parlamentli respublika və demokratik hüquqi dövlət prinsiplərinə əsaslanırdı. AXC Müsəlman Şərqində hüquqi, dünyəvi dövlət quran ilk parlamentli respublika idi. Dünyəvi dövlətin qurulması və dini hüquq terminlərinin dövlətin hüquq sistemindən çıxarılması ilə hüquqi dil Avropa modelinə uyğunlaşdırıldı və dünyəviləşdi. Bu dövrdə parlamentli respublika modelinin yaranması ilə hüquqi leksikona ***parlament (qanunverici orqan), Nazirlər Şurası (icra hakimiyyəti), məhkəmə sistemi, respublika, müstəqillik, suverenlik, vətəndaşlıq, bərabərlik hüququ, seçki hüququ, qanun layihəsi, müzakirə, səsvermə, qərar, komissiya, məhkəmə, hakim, prokuror, vəkil, istintaq, cinayət məsuliyyəti*** kimi terminlər daxil oldu. Terminlərin yaranmasına dövrün əhəmiyyətli hüquqi-siyasi hadisələri təkan

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 288-294*

verdi. 2 ildən də qısa müddət ərzində —1918-1920-ci illərdə vətəndaşlıq, seçki, dövlət dili haqqında, torpaq islahatı haqqında qanunların qəbul edilməsi, qadınlara seçki hüququnun verilməsi milli-konstitusion hüquq terminologiyasının əsasını qoyaraq, terminlərin sistemli işlənməsi ilə nəticələndi.

1920-ci ildə AXC-nin dağılması ilə Azərbaycanda sovet hakimiyyəti quruldu və hüquqi-siyasi sistem sovet-sosialist ideologiyasına uyğunlaşdırıldı. Artıq hüquqi leksikona marksist-leninçi konsepsiyalar daxil olmağa başladı. Hüquqi terminlər daha çox siyasi məna daşıyırdı və əksəriyyəti artıq rus dilindən alınırdı. Sovet dövrünün əsas hüquqi terminlərinə dövlət idarəçilik sahəsində ***sovet (şura), xalq deputatları soveti, Ali Sovet, icraiyyə komitəsi, prokurorluq, xalq məhkəməsi,*** ideologiya ilə bağlı terminlərə ***sosialist qanunçuluğu, ictimai təhlükəlilik, sinfi mübarizə, xalq düşməni,*** cinayət hüququ ilə bağlı terminlərə ***ictimai təhlükəli əməl, cinayət məsuliyyəti, islah-əmək düşərgəsi, məhkumluq, amnistiya,*** mülki və iqtisadi sahə üzrə ***dövlət mülkiyyəti, kolxoz, sovxoz, planlı iqtisadiyyat, əmək müqaviləsi*** və s. misal göstərmək olar. 1991-ci ildə Sovet hakimiyyətinin dağılması və Azərbaycanın təkrar müstəqilliyini bərpa etməsi ilə konstitusion dövlət modeli yaradıldı və demokratik-hüquqi dövlət modelinə keçid edildi. Müstəqillik dövründə Mülki Məcəllə, Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Ailə Məcəlləsinin qəbul edilməsi hüquqi leksikonun standartlaşması və sistemləşməsinə əsaslı zəmin yaratdı. Bu dövrdə Sovet dövründə istifadə edilən bir çox terminlər – ***sosialist mülkiyyəti, xalq düşməni, sosialist qanunçuluğu, antisovet təbliğatı, Ali Sovet, Xalq deputatları soveti, sosialist mülkiyyəti, sovxoz kolxoz*** funksional olaraq leksikondan çıxarıldı. Bəzi terminlər məzmun və funksional olaraq aşağıdakı kimi yeni formada transformasiya edildi.

| ***Sovet dövrü*** | ***Müstəqillik dövrü*** |
|---|---|
| Ali Sovet | Milli Məclis |
| SSR | Respublika |
| İctimai təhlükəlilik | Cinayət tərkibi |
| İslah-əmək düşərgəsi | Penitensiar müəssisə |
| Sosialist mülkiyyəti | Xüsusi/dövlət mülkiyyəti |
| Kolxoz | Kənd təsərrüfatı müəssisəsi |
| Plan tapşırığı | Müqavilə öhdəliyi |
| Prokuror nəzarəti | Qanunçuluğa nəzarət |
| Xalq məhkəməsi | Ümumi yurisdiksiya məhkəməsi |
| Sosialist qanunçuluğu | Hüquqi dövlət |
| Sinfi ədalət | Qanunun aliliyi |

Müstəqillik dövrünün əsas hüquqi terminlərinə ***hüquqi dövlət, suverenlik, hakimiyyət bölgüsü, konstitusion nəzarət, referendum, vətəndaşlıq,*** mülki hüquq

sahəsində ***mülkiyyət hüququ, müqavilə azadlığı, hüquqi şəxs, sahibkarlıq fəaliyyəti, öhdəlik hüququ,*** inzibati və məhkəmə sistemi üzrə ***inzibati məhkəmə, inzibati icraat, apellyasiya instansiyası, kassasiya şikayəti, Konstitusiya məhkəməsi*** və s. misal göstərmək olar. 2001-ci ildə Azərbaycanın Avropa Şurasına üzv olması və Avropa İnsan Hüquqları Konvensiyasına qoşulması ilə insan hüquqları ilə bağlı ***insan hüquqları və azadlıqları, ləyaqət hüququ, ədalətli məhkəmə araşdırması, bərabərlik prinsipi, diskriminasiya qadağası*** kimi terminlər də leksikona daxil oldu. Hüquqi sistem Avropa modelinə uyğunlaşdığından dilə ***ombudsman, konvensiya, ratifikasiya*** kimi beynəlxalq hüquq terminləri daxil oldu.

**Nəticə**

Azərbaycanın dövlətçilik tarixi hüquq sisteminə və hüquqi leksikonun formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Hələ hüquqi terminlərin sadəcə anlayış kimi şifahi qaydada mövcud olduğu islamaqədərki dövrdən başlayaraq sonrakı dövrlərdə – İslam hüququ dövrü, xanlıqlar mərhələsi, Rusiya imperiyasının hakimiyyəti, Azərbaycan Xalq Cümhuriyyəti dövrü, sovet sistemi və müstəqillik dövrü – siyasi sistemin dəyişməsi ilə terminlər bazasında da əhəmiyyətli dəyişikliklər olmuş, yeni terminlər leksikona daxil olmuş, bəziləri sonradan məzmun və ya funksional olaraq transformasiyaya uğramış, bəziləri isə tamamilə leksikondan çıxarılmışdır. Azərbaycanın hüquq terminologiyasının formalaşması hüquq sisteminin tarix boyu təkamülünün məhsulu və həm də dövlətçilik modelinin inkişaf xüsusiyyətlərinin əhəmiyyətli göstəricisidir.

**ƏDƏBİYYAT**

1. Allahverdiyeva G. Türk və Azərbaycan dillərində hüquq terminologiyasının formalaşması və inkişafı (fil.elm.nam.diss.) Bakı, 2005
2. Əkbərov R., Səlimov S., Azərbaycanın dövlət və hüquq tarixi, Bakı, Qanun, — 2003, — 532 s.
3. Hacıyeva M. Azərbaycan dilində hüquq terminlərinin linqvistik təhlili (fil.elm.nam.diss.) Bakı, 2008
4. İsmayılov X., Azərbaycanın hüquq tarixi, Bakı, Elm və təhsil, — 2015, — 572 s.
5. Məlikova M., Nəbiyev E., Müasir dövlət və hüquq tarixi, Bakı, Elm və həyat, - 2003, - 636 s.
6. https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols
7. https://e-qanun.az/framework/897

**Bayramova Günel Mübariz qızı**

**Xülasə**

**Azərbaycan hüquq terminologiyasının tarixi mərhələlər üzrə formalaşma xüsusiyyətləri**

Məqalədə Azərbaycanın islamaqədərki dövrdən müstəqillik dövrünə qədərki hüquq sisteminin formalaşması və təşəkkülü mərhələləri, dövlət və hüququn yaranmasının qarşılıqlı əlaqəsi və hüquqi sistemin formalaşmasının hüquq leksikonuna təsiri tədqiq olunur. Hüquqi sistem və termin bazasının formalaşması dövlətin təşəkkülü ilə dialektik vəhdət təşkil edir. Məqalədə qeyd olunan tarixi inkişaf mərhələlərinin hər birində dilə daxil olan və ya dövrün sosial-hüquqi tələbatından yaranan fars, türk, ərəb, Avropa mənşəli hüquqi terminlər araşdırılır və izahlı şəkildə təqdim olunur.

**Bayramova Gunel Mubariz**

**Summary**

**Features of the formation of Azerbaijani legal terminology by historical stages**

This article analyzes the development of Azerbaijan's legal system from pre-islamic to independence period, as well as its influence on the formation of legal terminology. The formation of the state and the development of the legal system are studied as interrelated processes. A comparative historical perspective is used to examine legal terms of Persian, Turkic, Arabic, and European origin, adopted into the legal lexicon at various periods of the state's historical development and shaped by the socio-legal needs of society.

**Байрамова Гюнель Мубариз**

**Резюме**

**Особенности формирования азербайджанской правовой терминологии по историческим этапам**

В статье анализируются этапы становления правовой системы Азербайджана от от доисламского периода до времени независимости, а также её влияние на формирование правовой терминологии. Формирование государства и развитие правовой системы рассматриваются как взаимосвязанный процесс. В сравнительно-историческом аспекте исследуются правовые термины персидского, тюркского, арабского и европейского происхождения, заимствованные в правовой лексикон в различные периоды исторического развития и обусловленные социально-правовыми потребностями общества.

***Rəyçi: fil.e.d.prof. Fidan Surət qızı Baxşıyeva***